

## RAFİQ AĞA QAFAR

### QIŞ VƏ BAHAR

Bahar hazır ikən girsin evlərə,
Qapının ağzını tutdu qar, külək,
Necə də dəyişdi birdən mənzərə,
Elə bil baharı uddu qar, külək.

Qızartdı, al etdi yanaqlarımı,
Paltomu ağartdı doymadı da qar,
Tez-tez sürüşdürdü ayaqlarımı,
Gözümü açmağa goymadı da qar.

İslatdı çölləri, düzənlikləri,
İslatdı saçımı, kürəyimi də.
Az vaxtda soyutdu kəndi, şəhəri,
Soyutmaq istədi ürəyimi də.

Qar özü yamanca yanılmış idi,
Yağırdı yenidən qış etmək üçün.
Yağan qar deyildi, yağan qış idi,
Yağırdı baharı göyərtmək üçün.

Bacara bilməmiş təbiətimlə,
Qışın sərt çovğunlu, oğlan çağı da.
Bir azdan dönəcək axan bir selə,
Qarın bu son dəfə çırpınmağı da.

Yağ dedim, yağ dedim, var gücünlə yağ,
Qarların qışın son nidası olsun.
Cavan pəhlivantək oyanır torpaq,
Suların, baharın qidası olsun.

Həyat budaqlanıb, çiçəklənəcək,
Canlanan torpaqlar uyuyan deyil.
Baharın oduyla qızınan ürək,
Qışın hədəsiylə soyuyan deyil.

### TƏBİƏT QIZI

Dənizin qoynunda elə üzürsən,
Balıqlar dalınca baxır həsədlə.
Sanki göylərdəsən, süzür, süzürsən,
Ulduzlar yanınca axır həsədlə.

Ayrılma dənizdən, xoşlamır dəniz,
Köpürüb, coşması səndən olubdur.
Bir yeni sevgiyə başlamır dəniz,
Ləpələr, dalğalar rəndən olubdur.

Ehtiras ötürüb sahil qumları,
Rəsmə çəkilməli dodaqlarına,
Budur göz önündə günəşin varı,
Qızartı gətirib yanaqlarına.

Dumanınki deyil, çəninki deyil,
Hansı bir qüvvədir, sənə can verib,
Mavi gözlərin də, səninki deyil,
Dəniz iki damla suyundan verib.

Bilmədim mən sənə nə deyim axı,
Xoşuna gələrmi "təbiət qızı"?
Sevir o günəşi, suyu, torpağı,
Dəyişib Xəzərə məhəbbət qızı.

### NEYLƏYİRƏM XALANI

Başlama, hədyan demə,
Söylə mənə olanı.
Kimə deyirsən, kimə?
Yalan üstə yalanı.

Deyirsən pul əl çirki,
Balam canı... bir, iki.
Pul nə olan şeydir ki,
Öldürürsən balanı.

Keçibsə də düz beş il,
Əl çəkən deyiləm bil.
Bir az verdin inişil,
Hanı yerdə qalanı?

Borcun qalıb Cəfərə,
Qəzənfərə, Zəfərə,
Tanıtmısan şəhərə,
Küçəmizi, dalanı.

İstəyirsən küs, inci,
Etmərəm əfsus, inci,
Üzün yox, vasitəçi
Göndərirsən Şulanı.

Demə yoxsullaşmısan,
Yaxşı çuğullaşmısan,
Deyirlər pullaşmısan,
Toylarda dəf çalanı.

Daxili boş qavalın,
Yox məqsədin, amalın,
Bu gün satdığın malın,
Mən deyiləm alanı.

Eşitmişəm pulun var,
Eylə həya, eylə ar,
Mənə borcunu qaytar,
Neyləyirəm xalanı?

## *QOCALIQ*

Bilən yoxdur həyatda
Qışdır, yaydır qocalıq.
Ömür sür, vermə bada,
İldir, aydır qocalıq.

Cavanlıq yada düşür,
Ürəklər oda düşür,
Günlər çox tez ötüşür,
Axan çaydır qocalıq.

Həyatın fəlsəfəsi
Heyran qoyur hər kəsi.
İnsan hara tələsir?
Gözəl paydır qocalıq.

Çıxmasam da mən taxta,
Gileylənmirəm baxta.
Görmüşəm boran, şaxta
Ötən saydır qocalıq.

Çox miqdarda əməyin,
Az ölçüdə yeməyin.
Çalışın ki deməyin -
Ahdır, vaydır qocalıq.

Vaxt tapıb şeir yazdım,
Külüng vurdum, yer qazdım.
Mən indi sağ olmazdım,
Olmasaydı qocalıq.

## *O ŞƏHƏRDƏN DEYİRƏM…*

O şəhərdən deyirəm,
Suya qədər qaralan,
Dirəklər üstündədir.
O şəhərdən deyirəm,
Vurğun, həssas, həvəsli,
Ürəklər üstündədir.

O şəhərdən deyirəm,
Mavidir yerləri də,
Mavidir göyləri də.
O şəhərdən deyirəm,
Balıq tut "torpağında",
Quş ovla göylərində.

O şəhərdən deyirəm,
Tikişidir dünyanın,
Üfüqün əyrisində.
O şəhərdən deyirəm,
Südəmər bir körpədir,
Öz nadir nənnisində.

O şəhərdən deyirəm,
Fəhlələri çalışır,
Su-hava arasında.
O şəhərdən deyirəm,
Sabahın iftixarı,
Xəzərin ortasında.

O şəhərdən deyirəm,
Qüvvət alır, böyüyür,
Nəhəng dalğalar kimi.
O şəhərdən deyirəm,
Baş alıb gedir, gedir,
Hələ yeri dar kimi.

O şəhərdən deyirəm,
Özünün varlığıyla,
Çox təzədir tarixə.
O şəhərdən deyirəm,
Möcüzədir tarixə,
Möcüzədir tarixə.

## *ÖZÜMÜZ*

Üç ilin müddətində
Elçi düşdük özümüz,
Bu toyun həsrətində
Yol çəkirdi gözümüz.

Balaları sevmişik,
Sevirik ömür boyu.
Qismət olub ev-eşik
Qismətdir oğul toyu.

Var həyatda izimiz,
Oğlanlar bizə arxa.
Yoxdur evdə qızımız,
Qalmışıq baxa-baxa.

Deməyin itirmişik
Xoşdur gəlin sevinci.
Öz evində sonbeşik
Bizdə olur birinci.

Savadlıdır, mətindir,
Dərs qiymətləri əla,
Tərbiyəsi kimindir?
-Gülnisə, Atabala.

Cavanlara sovqatdır
Böyüklərin duası,
Gəlinə mükafatdır
Bəyimizin anası.

Ürəyimizdə hələ,
Arzu-muradımız var.
Növbədə bundan belə,
Subay Cavadımız var.

Bel bağlayan nə deyir?
Əl ayağı düz gərək,
Oğlanlar yar gözləyir,
Bizə iki qız gərək.

**P.S. Şeirdə adlar dəyişdirilib və hər hansı bir oxşarlıq təsadüfidir.**

## "TƏRƏQQİ"

*Texnika elmləri doktoru, Nyu-York elmlər akademiyasının həqiqi üzvü, Azərbaycan Texniki Universitetinin elektronika kafedrasının professoru, uzun müddətli və səmərəli pedoqoji müəllimlik fəaliyyətinə görə "Tərəqqi" medalı ilə təltif olunmuş, 3 monoqrafiya, 5 dərs vəsaiti, 250-dən artıq elmi məqalə, 10 ixtira üçün müəlliflik şəhadətnaməsinə layiq görülmüş və məktəb illərindən dostluq telləri ilə bağlı olduğum Çingiz İldırım oğlu Əbilova həsr olunub*

Danışmadın ədalı,
Görünmədin nidalı,
Ala bildin dövlətdən
Sən "Tərəqqi" medalı.

Dostlara sevinc oldu,
Söz dedin, gülünc oldu.
Deyirsən ki, medalım
Qızıl yox, bürünc oldu.

Yada saldın adları,
Tədrisdə inadları,
Xatırladın birbəbir
Müəllim ustadları.

Niyyətini saf elə,
Daim inkişaf elə,
Bu dəfə yazdığını
Dostlara ithaf elə.

Təlimdə iftixarsan,
Elmdə at çaparsan
Bu gedişlə irəli,
Qızıla da çatarsan.

## ZARAFAT

Bu gün olduqca şənəm,
Bu gün çox yaxşı gündür,
Oğlan atası mənəm,
Qızın atası hündür.

Bir-birinə analar,
Versələr müsabiqə.
Gülnisə məğlub olar,
Qalib gələr Rəfiqə.

Cavanlar deyər gülər,
Mübarəkdir toyları.
Dik daban geyməsələr,
Münasibdir boyları.

Qız tərəfdə Zəminə,
Cabir var, daha kim var…
Bizim tərəfdə yenə
Murad var, Mərahim var.

Zarafat Toyda olar,
İki tərəf qarışsaq.
Hamı bir boyda olar,
Ailəvi yığışsaq.

Neytral bir meydanda,
Keçirildi bu yarış.
Sənəd hazır olanda,
Biz uduzduq bir qarış.

Uduzduq, uduzduq
Həm boyda, balam canı
Həm çəkidə uduzduq.

**P.S. Şeirdə adlar dəyişdirilib və hər hansı bir oxşarlıq təsadüfidir.**

## KÜLƏK

Gəlişin cürətlidir,
Əsirsən başım üstə,
Özünə arxa axtar,
Özünə hayan istə,
İnsan sədaqətlidir.
Dur külək, dayan külək,
Qışda qorxulu düşmən,
Yayda ərmağan külək.

Küçələrin tozunu
Arxanca qaldırırsan.
Boru və çardağlarda,
Musiqi çaldırırsan,
Bütün ömrün uzunu.
Dur külək, dayan külək,
Getdin bulud apardın,
Gətirdin duman, külək.

Göstərirsən gücünü
Möhkəm dayaqlaramı?
Yoxsa zəif gördüyün
Zərif budaqlaramı

Çəkirsən ülgücünü…
Dur külək, dayan külək,
Hirsini də az eylə,
Verginən aman, külək.

Tutaram əllərimlə
Budaq bitişsin, deyə
Bahar vaxtı onda da
Meyvə yetişdin, deyə
Şadam əməllərimlə
Dur külək, dayan külək,
Bəzən sakit bir quzu
Bəzən bir aslan külək.

Gedişin qəribədir,
Bir anda yox olursan.
Hüdudu görünməyən
Səmaya sovrulursan,
Yerə keçirsən, nədir?
Dur külək, dayan külək,
Burda yuxuya gedən,
Burda oyanan külək.

## *ALTMIŞ YETİŞDİ*

Hər hansı deyimdə gəzərdim məna,
Bir söz vardı, yaman dəyərdi mənə,
Qonşu İzzət xala zarafatyana,
"Saqqalın ağarsın" deyərdi mənə.

Allah nizamlayır taleyi, baxtı,
Görəsən yaxşıyam, pisəm, necəyəm?
Mənə desəydilər uşaqlıq vaxtı,
Altımış yaşına yetişəcəyəm.

Bəlkə düşünərdim, bir zarafatdı,
Güman yox bir günə, aya, bir ilə,
Altımış yetişdi, altımış çatdı,
Yaşıma baxıram təəccüb ilə.

Mənə desəydilər illərə güvən,
Hər cürə şərait, sevin, olacaq…
Ailən, dostların, dörd körpə nəvən,
Dəniz kənarında evin olacaq…

Xaricdə işləyib düz iyirmi il,
Edə biləcəyəm kimənə yardım.
Müddət cavan üçün qavranan deyil,
Dərin düşünsəydim havalanardım.

Saqqalım ağarıb, üstəlik bığ da,
Güzgüdə əksimə baxsam, xoşammı?
Elə bir qənimət yoxdur sağlıqda,
Məsələ budur ki, yaşamışammı?

İki nəfər olub içimdə müdam,
Biri mən, o biri Rafiq qardaşım.
Yaşamış, onu da unutmamışam,
Qalsaydı, olardı layiq qardaşım!

Bu gün sevinirəm, reallıq budur,
Qamətim düz olub, sürünməmişəm.
Keçmişəm alovu, keçmişəm odu,
Kiməsə müqavva görünməmişəm.

Beşinci on iki, beşinci xoruz,
Uşaqlıq, cavanlıq, ahıllıq çağım…
Bəzən hədələrə qalmışam məruz,
Yadıma düşməyir xoruzlanmağım.

Olmayıb mənasız keçirdiyim an,
Olmayıb günlərim, aylarım, ilim.
Keçir ürəyimdən, damarlarımdan,
Nə qədər ki, sağam sevim, sevilim.

Ürəyimdən keçən ürəyimdədir,
O hansı əsəbdir, qıcıqlanmasın.
Məni sevindirən, incidən nədir?
Yaxşısı budur ki, açıqlanmasın.

Hər hansı deyimdə gəzərdim məna,
Bir söz vardı, yaman dəyərdi mənə.
Qonşu İzzət xala zarafatyana,
"Saqqalın ağarsın" deyərdi mənə.

**P.S. Xoruz ilində həyata göz açmışam.**